BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№3 Sosial-siyasi elmlər seriyası 2021*

## HÜQUQ

**UOT 340.1(091)**

# AZƏRBAYCAN SİYASİ-HÜQUQİ FİKİR TARİXİNDƏ UTOPİK DÖVLƏT HAQQINDA İDEYALARIN FORMALAŞMASI VƏ İNKİŞAFINA DAİR

**T.K.ZEYNALOVA**
***Bakı Dövlət Universiteti***
***tkzeynalova@gmail.com***

*Məqalədə Azərbaycanın siyasi-hüquqi fikir tarixində dövrlər üzrə utopik ideyaların yaranması və inkişafı məsələləri tədqiq edilir. Tədqiqatın predmetini utopik təlimlərin sosial-siyasi mahiyyəti, fərqli cəhətləri və xüsusiyyətlərinin açılıb göstərilməsi təşkil edir. Qədim miflərin əhəmiyyəti, utopik ideyaların inkişafının sonrakı mərhələlərinin xarakteristikası verilir. Quldarlıq və erkən feodalizm dövründə utopik təlimlər yeni radikal ideyalarla zənginləşmişdir. Belə ki, qədim xalqların tarixi abidəsi "Avesta"da Yima ilk utopik cəmiyyətin yaradıcısı kimi təqdim edilir. Daha sonra sosial bərabərlik, insanlar arasında maddi nemətlərin bərabər və ədalətli bölgüsü və s. haqqında zərdüştiliyin ideyalarını əxz edən manilik, məzdəkliik və xürrəmiliyin utopik ideyaları araşdırılır.*

**Açar sözlər:** utopik cəmiyyət, maarifçi monarxiya, ideya cərəyanı, sosial bərabərlik, əmlak bərabərliyi.

Utopiya (yun. u - yox, və topos - yer, yəni mövcud olmayan yer) [4, 197] - arzu olunan mükəmməl bir cəmiyyət, xəyal edilən dövlət kimi başa düşülür. Hər bir tarixi dövr ictimai varlığın təkamülünün xüsusiyyətləri ilə bağlı olan özünün utopik fikirlərinin inkişafı və durğunluğunun nisbətinə malikdir. Və bu baxımdan da ilk növbədə qədim utopik fikrin əsas xüsusiyyətlərini müəyyən etmək daha məqsədəmüvafiq hesab olunur. Onun özəyini bütün dünyada son dərəcə geniş yayılmış "qızıl əsr" mifi, yəni insanların uzaq keçmişdə xoşbəxt yaşaması haqqında təsəvvürlər təşkil edir.

Siyasi-hüquqi fikir tarixində utopik ideyaların yaranması m.ə. I əsrə gedib çıxır. Utopuk fikirlərin yaranmasının ilkin mərhələsində insanlarda ilk dəfə üzə çıxan və onların yaşadığı dünyanı bütövlükdə olduğu kimi qəbul etmək, şübhə altına almaq, dəyişdirməyə cəhd etmək obyekti kimi nəzərdən keçirmək bacarığı ictimai şüurun fəallığının ən gözlənilməz təzahürləri üçün imkanlar açmışdır.

Dünya xalqları kimi, Azərbaycan xalqının da siyasi-hüquqi fikir tarixində

ədalətli sosial quruluş, utopiya haqqında ilk təsəvvürlər miflərdə öz ifadəsini tapmış, onlardan qaynaqlanmış və bir neçə yüzilliklər ərzində rasionallaşmaya məruz qalmış miflərlə dərin daxili əlaqəni qoruyub saxlamışdır. Bu mərhələdə mifoloji mətnlərdə öz əksini tapmış dünyanın yaranışı, hakimiyyət, qanun, insanın dünyadakı yeri haqqında təsəvvürlər bir neçə yüzilliklər dini-mifoloji çərçivədən çıxa bilməmişdir. Onlar tədricən ictimai münasıibətlərin, insan təfəkkürünün inkişafı prosesində - erkən quldarlıq cəmiyyətinin təşəkkülü və inkişafı mərhələsində fərdi və ictimai şüura təsir göstərən ideyalara çevrilmişlər.

Azərbaycan ərazisində yaşayan qədim xalqların mədəniyyətinin, onların siyasi-hüquqi təsəvvürlərinin klassik mənbəyi zərdüştiliyin müqəddəs kitabı "Avesta"dır. Bu tarixi abidə təkcə öz dövrü üçün deyil, bütün dövrlər üçün mənəvi və elmi dəyərini qoruyub saxlamışdır. Avestada qədim xalqların mənəvi, dini, sosial görüşləri, qanunlar və mövcud qaydalar haqqında bir çox məsələlərə aydınlıq gətirilmişdir. O, uzun əsrlər boyu formalaşmış və müxtəlif ictimai-iqtisadi formasiyaları, bir çox dövlətin ərazisində məskunlaşan əhalinin dünyagörüşünü əhatə etmiş, bu baxımdan da özündə müxtəlif sosial təbəqələrin maraqlarını ifadə edən sosial-siyasi və hüquqi ideyaları əks etdirir. Burada dövlət, hakimiyyət, qanun, ədalət və s. sosial hadisələr haqqında zəngin material toplanmışdır. Avestanın məzmununun öyrənilməsi Azərbaycan siyasi-hüquqi fikrində utopik ideyaların hələ qədim dövrlərdə meydana gəlməsi haqqındakı mülahizələri təsdiq edir.

Qeyd edilməlidir ki, Avestanın mətnində "dövlət" və "cəmiyyət" anlayışları məna etibarilə, demək olar ki, eynilik təşkil edir. Avestaya görə dövlət-cəmiyyətin struktur vahidləri aşağıdakılardan ibarətdir: cəmiyyətin aşağı vahidi hesab edilən ev-ailə; qəbilə, qəbilə icması; bir neçə qohum icmaları birləşdirən tayfa; tayfaların ittifaqından təşkil edilən vilayət ("dahya"); bir neçə vilayətin birliyinin ifadəsi olan dövlət [3,14]. Burada səmavi çarlığın təcəssümü olan dövlət daxili müstəqillik, müəyyən ərazi üzərində hər cür xarici nəzarəti istisna edən tam hökmranlıq kimi təqdim edilir. Onun əsas funksiyalarından biri müqəddəs odun mühafizə edilməsidir ki, bu da xalqın mənəvi cəhətdən birləşdirilməsi baxımından əhəmiyyət kəsb edirdi. Zərdüşt qanunlarına görə dövlətin digər bir funksiyası "Aşa"nın (Asha) mühafizə edilməsidir, çünki yer üzündə işığın qələbəsi, xalqın və hər bir insanın rifahı məhz ondan asılıdır. Aşa ədalətli qayda, ədalət mühakiməsinin, xeyir işlərin müdafiəçisi, haqq yolunu göstərən kimi qələmə verilir. O, mənşə və təbiəti etibarilə Ahura Məzda dünyasına, ilahi yaranışa mənsubluğu ifadə edir. Aşa həm sırf əxlaqi tərəfdən, həm nizam-intizam xarakterli göstərişlər nöqteyi-nəzərindən Ahura Məzda qanununa riayət edilməsini ehtiva edir. Ümumiyyətlə, "Aşa" sözü başlıca olaraq "bakirəlik", "qüsursuzluq" mənasını verir ki, bu da yalnız mənəviyyatların təmizliyini deyil, həm də səhvlərdən və ya ağılsız hərəkətlərlə təmasdan irəli gələn hər hansı pisliklərin olmamasını ifadə edir [9]. Zərdüşt özünün sosial idealının reallaşmasını Ahura Məzdanın ona bəyan etdiyi kimi, Aşanın - ədalətli qaydaların tanınmasında görür: "Yalnız bir yol vardır və o yol Aşanın yoludur, bütün

digər yollar isə yolsuzluqdur" [5, 107].

Bəşəriyyətin sosial-siyasi fikir tarixində utopiya haqqında ilk ideyalar öz əksini zərdüştiliyin təlimində tapmışdır. Avesta ilk insan, səma oğlu Yima, onun hələ cənnətdə mövcud olduğu vaxtlar haqqında mifdən xəbər verir. "Vendidad"ın ikinci fəslində cənnətdən ət yediyi üçün qovulan Yimanın "qızıl əsr" adlanan 1000 illik hakimiyyəti dövründən bəhs olunur (Yəşt, IX, 10). O, yer üzünü cənnətə çevirən xoşbəxt hökmdar kimi təsvir olunur (Vendidat, II).Yima cəmiyyəti ədalətlilik prinsipi əsasında qurur. Bu zaman sosial ədalətlilik kateqoriyası xeyirlə, düşmənçiliyin, qəzəbin, yalanın, zorakılıq və ölümün olmaması, xoşbəxt həyat qurmaq və bir sıra digər mənəvi kateqoriyalarla eyniləşdirilir.

Yima ölkəni ağılla və ilahi qanunlarla idarə edən ilk müdrik hökmdardır. Sərt qış, tufan olacağı haqqında xəbər alan Yima Ahura Məzdanın əmri ilə yer üzündə sığınacaq yaradır. Ahura Məzda Yimaya mənzil qurmağın, torpağı becərməyin, xalqı qorumağın yollarını göstərir, o, düşmənçilik, qəzəb, yalan, ölüm olmayan bir səltənət yaratmağı tələb edir.

Yuxarıda deyilənlər bir daha sübut edir ki, Zərdüştün sosial idealı olan ədalətli ictimai quruluş, "xoşbəxt cəmiyyət" kifayət qədər yüksək rifah və yüksək mənəviyyatla səciyyələnir. Bu, zərdüştiliyin əxlaqi prinsipləri (xeyirxah fikir, xeyirxah söz, xeyirxah əməl) üzərində qurulmuş, istismarın aradan qaldırıldığı, ədalətin, xeyirxahlığın, maddi və mənəvi bərabərliyin təmin olunduğu bir utopik cəmiyyətdir ki, burada verilən sözə sədaqətlə əməl edilir, əmin-amanlıq, torpağa sevgi təqdir edilir. Yimanın qurduğu utopik dövlətdə əməksevərlik yalnız insanların maddi rifahını yaxşılaşdırmaq üçün deyil, həm də onlarda müsbət əxlaqi keyfiyyətlərin formalaşdırılması üçün zəruri hesab olunur. "Xoşbəxt cəmiyyət"də hökmdarın fəaliyyəti hər bir üzvünün firavan həyatını, əmin-amanlığını təmin etməyə yönəlmişdir. Bu cəmiyyətdə hökmdara verilən hakimiyyət "xeyirxah hakimiyyət" kimi müəyyən edilir" [1, 44]. İnsanlar Yimanın yaratdığı yerdə xoşbəxt həyat sürürlər.

Maraq doğuran məsələlərdən biri də bu cəmiyyətdə hakimiyyətin xarakteri ilə bağlı ideyalardır. Tədqiqatçıların gəldiyi yekdil fikir bundan ibarətdir ki, zərdüştilik təlimində hakimiyyətin ilahi mənşəyi təbliğ edilir. Burada sahibinə ilahi nur və qanuni hakimiyyət hüququ verən "xvarno"nun (çar hakimiyyətinin simvolu) daşıyıcısı olan hökmdar hakimiyyəti başa düşülür. Hakimiyyətin formaları məsələsi isə prof. M.Məlikovanın fikrincə, maarifçi monarxın hakimiyyətinin tanınması planında öz həllini tapmışdı [6, 98]. Zərdüştin təlimində maarifçi monarx Məzda qanunlarını bilən və onu ictimai həyata tətbiq edən hökmdar kimi təsvir edilir. Cəmiyyətin rifahı naminə, hökmdarın yüksək mənəvi keyfiyyətlərə malik olması, güclü qüdrət sahibi olması vacibdir.

"Vendidat"da Yimanın yaratdığı "xoşbəxt cəmiyyətin" "sahibi", müdrik hökmdarı kimi mülki hakimiyyətin başçısı Urvatat-Nara və dini hakimiyyətin başçısı isə Zərdüştin adı çəkilir. "Vendidad"ın sonuncu paraqraflarının sonradan əlavə olunması nəzərə alınarsa, belə nəticəyə gəlmək olar ki, Avestada

Zərdüşt Məzda qanunlarını təbliğ edən, onu rəhbər tutan, insanlar üçün zorakılığın olmadığı xoşbəxt cəmiyyət yaratmalı olan müdrik hökmdar kimi təqdim olunmuşdur.

III-IX əsrləri əhatə edən erkən feodalizm dövrünün siyasi fikir tarixi ictimai əmlak təməli üzərində orijinal sosial harmoniya və ədalət prinsiplərinin irəli sürülməsi ilə zənginləşdi. Bu mərhələdə qədim dövrlərin bərabərlik, ədalət, əməyin ümumiliyi prinsiplərinə əsaslanan utopik ideyaları əxz edərək yeni keyfiyyət xüsusiyyətləri qazandı. Xüsusi mülkiyyətin ləğv edilməsi, sosial və əmlak bərabərliyinin bərqərar edilməsi, dünyəvi nemətlərin xalqın mənafeyinə uyğun bərabər bölünməsi kimi qəti tələblərin irəli sürülməsi və utopik bərabərləşdirici ideyaların təbliği erkən feodalizm dövründə utopiya haqqında ideyaların mühüm xüsusiyyəti hesab olunur. Əlbəttə bunu təsadüfi hesab etmək olmaz. Çünki bu ideyalar ölkə üçün mürəkkəb tarixi bir şəraitdə formalaşmışdır. Bunu ilk növbədə Azərbaycanın sosial-iqtisadi həyatında feodal münasibətlərinin təşəkkülü və inkişafı, ölkə ərazilərinin digər dövlətlər tərəfindən zəbt edilməsi ilə əlaqələndirmək lazımdır. Feodal münasibətlərinə keçid prosesində sosial ziddiyyətlərin kəskinləşməsi, yadelli işğalçıların hakimiyyəti altına düşmək ciddi nəticələrə gətirib çıxartmışdır ki, bu da tarixdə özünə müvafiq yer tutmuş müxtəlif bidətçi cərəyanların yaranmasına təkan vermişdir. Hakim ideologiyaya qarşı siyasi və ideoloji etiraz kimi formalaşan bidətçilik cərəyanları yerli feodallar və xarici işğalçılara qarşı mübarizə şüarı altında baş verirdi. Bu da, prof. M.F.Məlikovanın qeyd etdiyi kimi, "obyektiv olaraq müəyyən sosial-siyasi, müəyyən mənada həm də iqtisadi hərəkət proqramının irəli sürülməsi zərurətini, həmçinin bunun praktik olaraq həyata keçirilməsi və yeni, gözlənilən və arzu olunan cəmiyyət proobrazı yaratmaq cəhdlərini şərtləndirmişdir ki, bu da həmin dövrdəki şəraitdə yalnız utopiya ola bilərdi" [7, 6].

Nəzərdən keçirilən dövr böyük sosial-siyasi əhəmiyyətə malik olan manilik (III əsr) və məzdəkilik (V əsrin sonları-VI əsrin əvvəlləri) cərəyanları ilə əlamətdar olmuşdur. Bu ideoloji cərəyanların mənbəyini başlıca olaraq hələ də mövcud olan və fəaliyyət göstərən zərdüştilik təlimi təşkil etmişdir. Yüksək zümrələrin hökmranlığına qarşı yönəlmiş manilik və məzdəkilik cərəyanlarının əsas məqsədi istismardan azad olmaq, sosial-siyasi azadlıqlar əldə etmək idi.

Bidətçi cərəyanlar kimi inkişaf edərək kütləvi ictimai-siyasi hərəkata çevrilən manilik və məzdəkilik təlimlərində xalq kütlələrinin iqtisadi və sosial-siyasi reallıqlarla şərtləndirilmiş sosial tələbləri irəli sürülmüşdür. Əməkçi xalqın mənafelərinin müdafiə olunması, maddi nemətlərin insanlar arasında bərabər bölgüsü bu təlimlərin əsas çağırışı olmuşdur. Kütləri öz ardınca aparmağı bacaran manilik və məzdəkilik cərəyanlarının qüvvəsi və nüfuzu da məhz elə bunda idi.

Manilik III əsrin ortalarında Arşaqilər qəbiləsindən olan Mani tərəfindən yaranmışdır. Zərdüştlükdə olduğu kimi, Maninin təlimində də əsas məsələ yer üzündə xeyirin şərlə, işığın qaranlıqla əbədi mübarizəsidir. Mani "Sirlər kitabı", "İki prinsip haqqında kitab", "İncil", "Həyat xəzinəsi", "Nəsihətlər" və s. əsərlərində siyasi həyatı, dövlətin inkişafını və hüququ bu əksliklərin

mübarizəsi prizmasında nəzərdən keçirirdi. O, xeyirin şər üzərində qələbəsinə, bunun da nəticəsində yer üzündə ədalətin, sülhün və xoşbəxtliyin zəfər çalmasına inanırdı.

Manilikdə həm iqtisadi məzmun daşıyan sosial etirazlar, həm də siyasi xarakterli ideyalar ehtiva olunmuşdur. O, sosial ədalətsizliyin köklərini xüsusi mülkiyyətdə görür, əmlak bərabərsizliyini ən böyük ədalətsizliklərdən biri hesab edirdi. Maninin ictimai-siyasi ideyalarının əsasını sosial bərabərlik, xalqın rifahının yaxşılaşdırılması, maddi nemətlərin insanlar arasında ədalətli və bərabər bölgüsü, sadə həyatın təbliği təşkil etmişdi. Bu isə, həmin dövrdə həyata keçirilməsi qeyri-mümkün olan bir arzu idi. Maninin təlimində utopik ideyalar sosial ədalətlilik, bərabərlik, azadlıq, ədalətsizliyin qarşısının alınması prinsipləri üzərində qurulmuşdur.

Qarşıya qoyulan məqsədə çatmaq üçün, yəni bərabərlik prinsipinə əsaslanan ədalətli cəmiyyət qurmaq naminə Mani tərəfindən təklif olunan mübarizənin passiv forması bu təlimi zərdüştilikdən fərqləndirirdi. O, hesab edirdi ki, İşığın (Xeyri) Qaranlığın (Şərin) hakimiyyətindən xilas edilməsinə, siyasi sferada istismarın, sosial və əmlak bərabərsizliyinin aradan qaldırılmasına yalnız asketik həyat tərzi keçirməklə nail olmaq olar; sosial şər üzərində dünyəvi nemətlərdən, mülkiyyətdən, zərdüştülikdən fərqli olaraq ailə həyatından imtina etməklə qələbə çalmaq olar. Öz dövrü üçün yeni olan bu müddəalar, xüsusilə də maddi nemətlərdən imtina etmək manilik təliminin müasiri olduğu cəmiyyətə qarşı bir mübarizə forması kimi qiymətləndirilməlidir.

Mahiyyət etibarilə Mani ədalət, ümumi rifah, onun özü tərəfindən işlənib hazırlanmış əxlaqi qaydaların rəhbər tutulması və s. əsasında insanların və bütün cəmiyyətin həyat tərzi ilə bağlı tələblər irəli sürmüşdür.

İctimai-siyasi hərəkat olmaqla ədalətsizliyə, zorakılığa əsaslanan ictimai quruluşa qarşı çıxan manilik təliminin ardıcılları təqiblərə məruz qalsalar da, uzun illər öz ideyalarını həm öz vətənlərində, həmçinin də onun hüdudlarından kənarda yaymağa müvəffəq olmuşlar. Manilik möhkəm və tənzim olunmuş təşkilata, müxtəlif ölkələrdə təbliğat aparan çoxsaylı missionerlərə malik idi. Maniliyin müvəffəqiyyət qazanması məhz təlimin cəmiyyətin aşağı təbəqələrinin əmlak və sosial bərabərsizliyinə qarşı etirazlarını ifadə etməsi ilə izah olunur. Manilik Azərbaycanın siyasi-hüquqi fikir tarixində dərin iz qoymuş, bir sira cərəyanların ideya mənbəyinə çevrilmişdir.

Utopik ideyaların inkişafında V əsrin sonları - VI əsrin əvvəllərinə Azərbaycanda geniş yayılmış məzdəkilik cərəyanının xüsusi rolu olmuşdur. Nəhəng xalq hərəkatına başçılıq etmiş bu cərəyanın yaradıcısı Məzdəkin təlimi ictimai fikir tarixinə yenilik gətirmişdir. Məzdəkilik təlimi zərdüştilikdən, zərvanilikdən və manilikdən fərqli olaraq daha radikal ideyalar, tələblər irəli sürmüşdür. Məzdəkilik manilikdə olduğu kimi, asketik həyat tərzini təbliğ edirdi. Lakin Məzdək manilikdən fərqli olaraq insanları bədbinlikdən uzaq olmağa, şərə və onun nəticələrinə, təm-tərağa qarşı açıq, fəal mübarizəyə çağırırdı. O, bəşəriyyətin sosial şərdən azad olmasını feodal hakimiyyətinin və xü-

susi mülkiyyətin inqilabi yolla ləğv edilməsində görür, sosial ədalət uğrunda üsyana qalxmağı mümkün hesab edirdi: "Bu müddəalarla razılaşmayan şəxs Əhrimənin pərəstişkarıdır və onun könüllü surətdə verməli olduğunu ondan zorla almaq lazımdır" [8, 167].

İctimai görüşlərinə görə utopik bərabərləşdirici kommunizmin təbliğatçısı olan Məzdək erkən feodalizm dövründə reallaşması qeyri-mümkün olan ideyaları irəli sürmüşdü ki, bu ideyalar da sosial utopiyanın ilkin təsəvvürləri hesab edilir. Ehtimal etmək olar ki, o, islahatçi kimi çıxış etmişdir. Məzdək mövcud quruluşun, sistemin tamamilə yeni - ədalətlilik və bərabərlik prinsiplərinə əsaslanan sistemlə əvəz edilməsi, sosial ədalətsizliyə qarşı inqilabi mübarizəyə çağırış şüarı ilə çıxış edirdi. O, sosial problemlərin - sosial və əmlak bərabərliyinin, maddi rifahın və s. xalqın mənafeyi mövqelərindən çıxış edilməklə həll olunmasının vacibliyini ortaya atmışdı. Məzdəkin irəli sürdüyü radikal tələblərdən biri bütün nemətlərin insanlar arasında tam bərabər bölünməsi idi. Onun fikrincə, Allah nemətləri ona görə yaratmışdır ki, adamlar onları öz aralarında tən bölsünlər. Lakin insanlar bir-birlərinə qarşı böyük ədalətsizlik etmişlər. Ona görə də varlıların əmlakını alıb, yoxsullara vermək lazımdır.

Məzdək insanların bir qrupunun həddindən artıq varlı, digərlərinin isə ehtiyac içində yaşamasını ədalətsiz hesab edirdi. Buna görə də möminlərin əmlaklarını öz dindaşları arasında bölüşdürülmələrini tələb edirdi. Orta əsrlərin məşhur dövlət və ictimai-siyasi xadimi, ilahiyyətçi alim Əbu Əli Həsən ibn Əli Xacə Nizamülmülk "Siyasətnamə" əsərində məzdəkiliyi tənqid edərək onun irəli sürdüyü ideyalara və müddəalara istinad edirdi: "Malı adamların arasında birləşdirib bölüşdürmək lazımdır, hamı allah-taalanın bəndəsi, Adəmin övladlarıdır, bir-birlərinin malını xərcləməlidirlər... Hamının vəziyyəti eyni, imkanları bərabər olmalıdır" [2, 136].

Gətirilən sitatdan aydın olur ki, məzdəkilik cəmiyyətdə baş verən haqsızlığın, istismarın səbəbini mülkiyyətlə əlaqələndirirdi. Bu mövqedən çıxış edərək Məzdək belə bir məntiqi nəticəyə gəlmişdir ki, ədalətli cəmiyyəti yalnız xüsusi mülkiyyəti və hər cür silki qeyri-bərabərsizliyi ləğv etmək, əmlakı ictimailəşdirmək, sosial bərabərliklərə nail olmaq yolu ilə qurmaq olar. Məzdəkilik sosial bərabərliyə nail olmanı ədalətin təntənəsi hesab edirdi.

Beləliklə də, Məzdəkin siyasi idealı əsasında mülkiyyətin ümumiliyi, bütün maddi nemətlərin bərabər bölgüsü, insanlar arasında bərabərlik prinsipinin durduğu, ədalət, yüksək əxlaq normalarının üstünlük təşkil etdiyi utopik cəmiyyət idi.

Məzdəkiliyin ictimai əhəmiyyəti və dəyəri onun əməliliyində özünü büruzə verir. Belə ki, Məzdək iri torpaq sahiblərinə hücum edib onların əmlakını yoxsullar arasında bölüşdürməklə öz ideyalarını əməli olaraq həyata keçirməyə müvəffəq olmuşdur.

Öz dövrünü qabaqlayan, sosial cəhətdən yetkin ideyalar irəli sürən məzdəkilik hərəkatı amansızcasına yatırılmışdı. Çünki məzdəkiliyin yüksələn qüdrəti Sasanilərin taxtı-tacı və dövlətin daxili siyasəti üçün birbaşa təhlükəyə

çevrildiyindən bu hərəkatın sonu qaçılmaz idi. Buna baxmayaraq, məzdəkilər hərəkatı dövlətin daxili həyatının qüsurlarını, çatışmazlıqlarını aşkara çıxartdı, onun əsaslarını sarsıtdı. Hərəkat məğlubiyyətlə sona çatsa da, Məzdəkin ideyaları uzun müddət yaşamış, təlimin ardıcılları gizli fəaliyyət göztərərək xalq kütlələrini feodal zülmünə qarşı mübarizəyə qaldırmışdı.

Tarix göstərir ki, utopiya haqqında ideyalar siyasi-hüquqi fikir tarixinin sonrakı inkişaf mərhələlərində də bir çox ideya cərəyanlarının əsasını təşkil etmişdi. Buna IX əsrin əvvəllərində ərəb əsarətinə qarşı azadlıq mübarizəsi kimi yaranmış xürrəmilik cərəyanının ideyaları şəhadət verir. Xürrəmilik Xilafət tarixində baş verən dini-siyasi çıxışlardan ən əzəmətlisi, ərəb üsul-idarəsinə qarşı xalqın azadlıq mübarizəsi səviyyəsinə ucalan bir ideya cərəyanı idi. Bu cərəyanın ideyaları, xüsüsən də istismardan azad, mülkiyyətsiz cəmiyyət haqqında irəli sürdükləri tələblər yeni deyildi, bir çox məqamda məzdəkiliyin təbliğ etdiyi ideyaların davamı idi. Bu onunla izah edilir ki, həmin dövrdə məzdəkiliyin təbliğ etdiyi ideyaları yenidən canlandıran obyektiv səbəblər hələ də mövcud idi. Əgər məzdəkilik feodal istismarına və hakim təbəqənin firavan həyat tərzinə qarşı yönəlmişdisə, xürrəmilər daha çox Xilafətin milli əsarətinə qarşı azadlıq mübarizəsi aparmışdılar.

Zərdüştilik, manilik, məzdəkilikdən qaynaqlanan xürrəmilik insanları köləliyə və hüquqsuzluğa məhkum edən sosial və əmlak bərabərsizliyini, xarici hökmranlığı və feodal əsarətini şərin təzahürü kimi qələmə verirdi. Xürrəmilik təliminin ardıcılları maddi nemətlərin ədalətsiz, qeyri-bərabər bölgüsünə qarşı çıxaraq onu insanların sosial-iqtisadi və siyasi məqsədinə yönəldir, onların firavan həyatını təmin edən əsas vasitə hesab edirdilər. Təlimin əmlak bərabərliyi haqqında ideyaları insanların maddi tələbatlarının təmin edilməsi məqsədindən irəli gəlirdi. Xürrəmiliyin ideyaları mülki azadlıqları təmin edə bilən cəmiyyət yaratmağa yönəlmişdir. Cərəyan xüsusi mülkiyyətin, feodal asılılığının ləğv olunmasına, əmlakın ictimailəşdirilməsinə, beləliklə də kəndli icmalarının hüquqlarının bərpa olunmasına çağırırdı. Onu da qeyd edək ki, məzdəkilər kimi xürrəmilər də irəli sürdükləri ideyaların qismən də olsa, gerçəkləşməsinə nail ola bilmişdilər.

Quldarlıq və erkən feodalizm dövründə Azərbaycan siyasi-hüquqi fikir tarixində formalaşmış azad, ədalətli, mükəmməl bir cəmiyyət haqqında utopik ideyalar nəinki ölkəmizdə, həm də Avropada bir çox bidətçi cərəyanların ideya mənbəyinə çevrilmişdi. Belə ki, manilik İtaliyada katarlar, Fransada albiqoylar cərəyanının düşüncə və fəaliyyətlərinə mühüm təsir göstərmiş, Məzdəkin xüsusi mülkiyyətin ləğv edilməsi, əmlakın ümumiliyi ideyaları isə Avropada kommunizm haqqında utopik sosialistlərin ideya mənbəyi olmuşdur.

**ƏDƏBİYYAT**


1. Azərbaycan fəlsəfə tarixi. I cild. Bakı: Elm, 2014, 456 s.
2. Əbu Əli Həsən ibn Əli Xacə Nizamülmülk. Siyasətnamə. Bakı: Çıraq, 2007, 273 s.
3. İsmayılov X. Azərbaycanın hüquq tarixi. Bakı: Elm və təhsil, 2015, 572 s.
4. Nəzərova A. Fəlsəfə terminlərinin izahlı lüğəti. Bakı: Elm və təhsil, 2014, 224 s.

5. Маковельский А.О. Авеста. Баку: АН Аз.ССР, 1960, 143 с.
6. Меликова М.Ф. Древний Иран. Авеста /История политических и правовых учений. Древний мир. М.: Наука, 1985, 349 с.
7. Меликова М.Ф. Из истории просветительства в Азербайджане в III-X вв. // Вестник Бакинского Государственного Университета. Серия социально-политических наук, 2009, №1, с.5-14.
8. Brentjes B. Die Iranishe Welt vor Mahommed. Leypzig, 1967.
9. De Arlez C. Avesta: Livre sacre du Zoroastrisme. P. 1881 (fransız dilindən tərcümə).

## О ФОРМИРОВАНИИ И РАЗВИТИИ ИДЕЙ ОБ УТОПИЧЕСКОМ ГОСУДАРСТВЕ В ИСТОРИИ ПОЛИТИКО-ПРАВОВОЙ МЫСЛИ АЗЕРБАЙДЖАНА

**Т.К.ЗЕЙНАЛОВА**

**РЕЗЮМЕ**

В статье поэтапно исследуются зарождение и развитие утопических идей в политико-правовой мысли Азербайджана. Предмет исследования составляет раскрытие социально-политической сущности, отличительных черт и особенностей утопических учений, характеризуется значение древних мифов, утопических идей последующих этапов развития. В период рабовладения и раннего феодализма утопическое учение обогащается новыми радикальными идеями. В известном историческом памятнике права древних народов – Авесте - характеризуется первый человек и царь Йима как создатель утопического общества. Далее исследуются утопические идеи манихейства, маздакизма и хуррамизма, перенявших идеи зороастризма о социальном равенстве, о равном и справедливом распределении материальных благ между людьми и др.

**Ключевые слова:** утопическое общество, просвещенная монархия, социальное равенство, имущественное равенство.

## ABOUT THE FORMATION AND DEVELOPMENT OF IDEAS ABOUT A UTOPIAN STATE IN THE HISTORY OF POLITICAL AND LEGAL THOUGHT OF AZERBAIJAN

**T.K.ZEYNALOVA**

**SUMMARY**

In this article examined in stages the origin and development of utopian ideas in the political and legal thought of Azerbaijan. The subject of the research is the disclosure of the socio-political essence, differences and peculiarities of utopian teachings, is characterized the significance of ancient myths, utopian ideas of subsequent stages of development. During the period of slavery and early feudalism, utopian teaching is enriched with new radical ideas. In the well-known historical monument of the law of ancient peoples - Avesta - is characterized the first man and king Yima as the creator of a utopian society. Next are explored the utopian ideas of manichaeism, mazdakism and khurramism, which adopted the ideas of zoroastrianism about social equality, about the equal and fair distribution of material wealth between people, etc.

**Keywords:** utopian society, enlightened monarchy, current of ideas, social equality, property equality.